# Hərbçi olmaqdan qürur duyurdu

**Onun 1984-cü il mayın 13-də dünyaya gəldiyi Füzuli rayonunun Qaraxanbəyli kəndi Birinci Qarabağ müharibəsində Ermənistan silahlı qüvvələri tərəfindən işğal olundu. Hüseyn Qasımov o zaman uşaq olsa da, başlarına gətirilən faciənin böyüklüyünü, yalnız qəlblərinə deyil, həm də çiyinlərinə yüklənən dərdin, qayğıların ağırlığını hiss edirdi.**



Düşmən isti ocaqlarını söndürdü, onları dədə-baba yurdlarından didərgin saldı. Evlərini gözləri yaşlı, könlü qubarlı tərk etməli oldular. Son dəfə boylandıqları doğma yurda bir də dönməyin xiffətinə, intizarına, nisgilinə, eyni zamanda şöləsi bəzən öləzisə də, heç zaman sönməyən ümidinə, inamına büründü sonrakı günləri...

Onlar məcburi köçkün həyatının çətinlikləri içərisində yaşamağa məhkum oldular. Hüseyn Qasımov da ailəsi ilə birlikdə Beyləqan rayonunun Qəhrəmanlı qəsəbəsində məskunlaşdı. Onlar doğma ocaqlarının, yurdlarının həsrəti ilə yaşayırdılar. Düşmən isə zəbt etdiyi ərazilərimizi talayır, abad ellərimizi məhv edirdi. Erməni vandalları 1990-cı illərdə işğal etdikləri bütün yaşayış məskənlərimiz kimi Füzuli rayonunun Qaraxanbəyli kəndini də xarabalığa çevirdilər.

Orta məktəbi bu nisgillə başa vuran Hüseyn təhsilini Ağcəbədi Pedaqoji Kollecində davam etdirdi. Ancaq o, kolleci bitirib, müəllim diplomu alsa da, pedaqoji fəaliyyət göstərmədi. Yurdu təcavüzkar ermənilər tərəfindən işğal olunan, viran qoyulan Hüseyn Qasımov hərbçi oldu.

Onun ən böyük arzusu Qarabağı, Şərqi Zəngəzuru Ermənistan silahlı qüvvələrinin işğalından azad etmək, həmin torpaqlarda Azərbaycan bayrağının dalğalandığını görmək idi. Bu müqəddəs arzularla 2011-ci ildən hərbçi olmaq qərarını verdi. Hüseyn Qasımov ilk vaxtlar Tərtər, Ağdam və Füzulidə xidmət etdi. Sonra Beyləqana gələrək, hərbi qulluğu kəşfiyyat taborunda davam etdirdi. Peşəkarlığını gündən-günə artıran gənc hərbçi verilən tapşırıqları layiqincə yerinə yetirdi. Seçdiyi şərəfli peşənin məsuliyyətini dərindən dərk edən Hüseyn Qasımov kəşfiyyat taqımının komandiri oldu.

2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin növbəti təxribatı nəticəsində İkinci Qarabağ müharibəsi başladı. Otuz ilə yaxın Ermənistanın işğalı altında qalmış Qarabağ və Şərqi Zəngəzur ərazilərimiz uğrunda gedən ağır döyüşlərdə hünər göstərən, düşmənin silahlı qüvvələrinə ağır zərbələr endirən igidlərimizin sırasında Hüseyn Qasımov da var idi.

Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpası uğrunda gedən savaşda o da canını düşmən güllələrinə sipər etdi. Azərbaycan Ordusunun qəhrəman giziri Füzuli, Cəbrayıl rayonlarının işğaldan azad edilməsi üçün aparılan döyüş əməliyyatlarında şücaət, igidlik göstərdi.

Gizir Hüseyn Qasımov oktyabrın 2-də Cəbrayılın azad edilməsi zamanı şəhid oldu.

O, Müzəffər Azərbaycan Ordusunun böyük Zəfər gününü görməsə də, arzuladığı oldu. Dünyaya göz açdığı yurd, eləcə də ona əziz olan Vətəninin digər əraziləri uğrunda döyüşmək Hüseyn Qasımova nəsib oldu. Silahdaşları Hüseyn kimi oğulların qisasını düşməndən aldı. Ermənistan silahlı qüvvələri məğlub edilərək, işğal altında saxladıqları Azərbaycan torpaqlarından qovuldular.

Qəhrəman gizir Hüseyn Qasımov döyüşlərdə göstərdiyi şücaətə görə ölümündən sonra "Vətən uğrunda", "Hərbi xidmətlərə görə", "Füzulinin işğaldan azad olunmasına görə" medalları ilə təltif edildi.

Hüseyn Qasımovun arzusu yerinə yetdi. İndi suverenliyi tam bərpa edilmiş Azərbaycanın bütün ərazilərində üçrəngli, ay-ulduzlu müqəddəs bayrağımız dalğalanır.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

Azərbaycan.- 2024.- 22 may, № 106.- S.11.